**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

**Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının ərazi təşkilinin coğrafi məsələləri**

| | |
|---|---|
| İxtisas: | **5401.01 – İqtisadi coğrafiya** |
| Elm sahəsi: | **Coğrafiya** |
| İddiaçı: | **Arzu Mikayıl qızı Xasməmmədova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Akademik **Budaq Əbdüləli oğlu Budaqov**

Texnika üzrə fəlsəfə doktoru
**Emin Məmmədiyə oğlu Hacıyev**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**Tapdıq Güləhməd oğlu Həsənov**

coğrafiya elmləri üzrə fəlsəfə doktoru
**Natiq Qubad oğlu Babayev**

coğrafiya elmləri üzrə fəlsəfə doktoru
**Qafqaz Məhəmmədhəsən oğlu Ağabalayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Unuversitetinin Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazı oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: Coğrafiya üzrə fəlsəfə doktoru, dosent **Sahilə Əbiş qızı Allahverdiyeva**

Seminarın sədri: Coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"03" 02 2025

# İŞIN ÜMUMU SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsində, nəqliyyat daşımalarının artmasında, xarici investorların ölkəyə cəlb olunmasında, habelə regional istirahət komfortunun təmin edilməsində rekreasiya-turizm sərvətlərinin xüsusi rolu var. Rekreasiya-turizmin təsərrüfatının inkişafı regionda əhalinin sosial yaşayış səviyyəsinin yaxşılaşdırılmasına, yerli əhalinin əmək qabiliyyətinin (məşğulluğunun) artırılmasına, yeni iş yerlərinin açılmasına və iqtisadi inkişafına kömək edir. Çünki müasir dünyada gəlir baxımından rekreasiya-turizm təsərrüfatı iqtisadiyyatın ayrılmaz bir sahəsinə çevrilmişdir.

Rekreasiya-turizm ehtiyatlarından səmərəli və düzgün istifadə, regional rekreasiya-turizm təsərrüfatının yaradılmasına imkan verir və son 30 ildə bu sahə sürətlə inkişaf etdirilir. Azərbaycan hökuməti də rekreasiya-turizm təsərrüfatını yüksək səviyyədə inkişaf etdirmək və dünya standartlarına çatdırmaq üçün turizm haqqında Qanun, dövlət proqramları, Strateji Yol Xəritəsi qəbul etmiş (2016-cı il), 2011-ci ili "Turizm ili" elan etmiş, bu istiqamətdə konfranslar, simpoziumlar, seminarlar və bir sıra beynəlxalq səviyyəli sərgilər təşkil etmişdir.

Respublikamızda rekreasiya-turizm təsərrüfatı neft sektorundan sonra daha gəlirli və perspektivli sahələrdən biri hesab olunsa da, onun dayanıqlı coğrafi aspektdə inkişaf etdirilməsi üçün potensial imkanları elmi əsaslarla hələ də dəyərləndirilməmiş, regionlar üzrə mövcud problemlər tam olaraq aradan qaldırılmamışdır. Potensial rekreasiya-turizm imkanları geniş olan, lakin problemlərlə qarşılaşan və hələ də tam inkişaf etdirilə bilməyən regionlarımızdan biri də Quba-Xaçmaz iqtisadi rayonudur.

Əlverişli iqlim şəraiti, əsrarəngiz meşələri, çayları, şəlalələri, təbii gölləri, dağ massivləri, eləcə də nadir yaşayış məskənləri və tarixi mədəniyyət abidələri ilə zəngin olan Quba-Xaçmaz iqtisadi rayonu turistlər üçün daha cazibədar ərazilərdən hesab olunur. Son

illər iqtisadi rayonda müasir tələblərə cavab verən mehmanxanaların və turizm obyektlərinin inşa edilməsi, istirahət yerlərinin yaradılması, nəqliyyat və xidmət infrastrukturunun yaxşılaşdırılması, bələdçi xidmətlərinin təşkili, turizm marşrutlarının fəaliyyət göstərməsi və s. turistlərin regiona marağını daha da artırmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizmin təsərrüfatının dayanıqlı inkişaf xüsusiyyətlərinin coğrafi məsələləri, təbii şəraitin iqtisadi-coğrafi baxımdan dəyərləndirilməsi, təbii-tarixi mədəniyyət abidələrinin turizmin inkişafında rolu, rekreasiya-turizm rayonlaşdırılmasının əhəmiyyəti və ərazi təşkili tədqiqat işinin aktuallığını sübut edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti olan Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın şimal-şərq hissəsində $40^{0}52^{I}$-$41^{0}50^{I}$ şimal en dairəsi ilə $48^{0}05^{I}$-$49^{0}22^{I}$ şərq uzunluq dairəsi arasında yerləşir. Quba-Xaçmaz iqtisadi rayonunun ərazisi 6,96 min $km^2$ olmaqla ölkə ərazisinin 8,1%-ni, əhalisi 543,8 min nəfər (2021-ci il) olmaqla ölkə əhalisinin 5,4%-ni təşkil edir. Əhalinin orta sıxlığı hər $km^2$-də 78 nəfərdir[1]. Ərazidə məskunlaşma amplitudası (2428 metr) isə -28 m-dən (Xaçmaz rayonu) 2400 m-ə (Quba rayonu, Xınalıq kəndi) qədər olan əraziləri əhatə edir. İqtisadi rayon ərazisində 6 şəhər, 21 qəsəbə, 474 kənd yaşayış məntəqəsi yerləşir[2].

Tədqiqatın predmeti isə Quba-Xaçmaz iqtisadi rayonunda son illər intensiv şəkildə istifadə olunan rekreasiya-turizm təsərrüfatının ərazi təşkilini öyrənməkdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Quba-Xaçmaz iqtisadi rayonunun təbii şəraiti, rekreasiya ehtiyatları, eləcə də turizmin inkişaf xüsusiyyətləri nəzərə alınmaqla rekreasiya-turizm təsərrüfatının iqtisadi-coğrafi problemlərinin müəyyən

---

[1] Azərbaycanın regionları, 2023 (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Çaşıoğlu Eİ, – 2023. – 864 s.

[2] İmrani Z.T. Quba-Xaçmaz iqtisadi rayonu / Z.T. İmrani. – Bakı: Elm, – 2007. – 172 s

olunaraq aradan qaldırılmasıdır. Məqsədə nail olmaq üçün aşağıda qeyd olunmuş vəzifələrin həlli tələb olunur:

– rekreasiya-turizm ehtiyatlarının tədqiqində elmi-metodiki və nəzəri-praktiki yanaşmanın əsaslandırılması;

– təbii və tarixi mədəniyyət abidələrinin rekreasiya-turizm təsərrüfatının inkişafı baxımından qruplaşdırılması;

– rekreasiya-turizm rayonlaşdırılmasının aparılması;

– nəqliyyat-kommunikasiya sisteminin rekreasiya-turizm təsərrüfatına təsiri yollarının müəyyən edilməsi və yeni turist marşrutlarının tərtibində nəqliyyatın rolunun əsaslandırılması;

– xidmət infrastrukturunun keyfiyyət səviyyəsinin tədqiqi üçün monitorinqlərin aparılması və onların beynəlxalq standartlara uyğunluğunun yoxlanılması;

– müasir şəraitdə tədqiqat ərazisində rekreasiya-turizm ehtiyatlarından istifadədə mövcud olan uyğunsuzluqların araşdırılması və əsaslandırılmış tövsiyələrin verilməsi.

**Tədqiqat metodları.** Tarixi və müqayisəli təhlil, statistik-riyazi materialların analizi, rayonlaşdırılma, kartoqrafik CİS texnalogiyaları və s. metodlardan istifadə edilərək cədvəllər, diaqramlar, xəritələr və sxemlər tərtib edilmişdir. Eksperimental tədqiqatlar çöl və kameral şəraitdə (2008-2022-ci illərdə) aparılmışdır.

**Müdafiəyə çıxarılar əsas müddəalar:**

1. Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm sərvətlərinin təbii-coğrafi və sosial-iqtisadi aspektdə tədqiq edilməsinin əhəmiyyəti.

2. Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının mövcud vəziyyəti və rayonlaşdırılması.

3. Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının inkişafında baş verən neqativ problemlərin aradan qaldırılması və ərazi təşkilinin inkişaf perspektivləri.

**Tədqiqatın elmi yeniliyi.** Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm ehtiyatları və onun inkişafının iqtisadi-coğrafi

problemlərinin kompleks şəkildə tədqiqində aşağıdakı yeniliklər alınmış və elmi cəhətdən əsaslandırılmışdır:

– rekreasiya-turizm ehtiyatlarının iqtisadi-coğrafi baxımından kompleks təhlili aparılmış və ərazi mənimsənilməsinin perspektiv inkişaf istiqamətləri müəyyən olunmuşdur;

– təbii şəraitin, eləcə də təbii və tarixi mədəniyyət abidələrinin rekreasiya-turizm baxımından cəlbediciliyi dəyərləndirilmiş və yeni turizm marşrutları təklif edilmişdir;

– rekreasiya-turizm rayonlaşdırılması aparılmış, ərazinin mənimsənilmə dərəcəsi müəyyən olunmuşdur;

– rekreasiya-turizm təsərrüfatının dayanıqlı ərazi təşkilinin coğrafi aspektləri müəyyən edilmişdir;

– rekreasiya-turizm təsərrüfatının strateji istiqamətləri turist cəlbediciliyi və əhali məşğulluğu ilə birgə aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əsaslarını təbii şəraitin, təbii və tarixi mədəniyyət abidələrinin dəyərləndirilməsi, eləcə də rekreasiya-turizm rayonlaşdırılmasının aparılması üçün müəllif tərəfindən təklif edilən metodiki göstərişlər təşkil edir. Tədqiqatın praktiki əhəmiyyəti isə Quba-Xaçmaz iqtisadi rayonunun inkişaf xüsusiyyətlıri nəzərə alınmaqla, son illər regionda baş vermiş dəyişikliklər, yerli əhalinin, xüsusilə yüksək dağlıq ərazilərdə yaşayan kənd sakinlərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında rekreasiya-turizm təsərrüfatının daha yeni və perspektivli sahələri hesab olunan ekoturizm, dağ turizmi və kənd turizminin inkişaf etdirilməsi ola bilər. Dissertasiya işinin materiallarından turizm şirkətlərində, tur operatorların hazırlanmasında, ali və orta ixtisas məktəblərinin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmununa və əldə edilmiş nəticələrinə müvafiq olaraq aşağıdakı konfranslarda çıxışlar edilmişdir: Görkəmli təbiətşünas alim, akad. H.Ə.Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans (Bakı), Strategy of Quality Industry Education” V Beynəlxalq konfrans 2009-cu il

(Varna, Bulgaria), "İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" I Beynəlxalq elmi konfrans 2010-cu il (Bakı, Azərbaycan), "Rizvan Xanəmi oğlu Piriyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş" Elmi konfrans, 2014-cü il (Bakı, Azərbaycan).

Tədqiqat işinin mövzusuna dair 10 elmi məqalə çap olunmuşdur.

Dissertasiya işində rekreasiya-turizm təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı verilən təklif və tövsiyələrin turizm işinin təşkilində, əhali məşğulluğunda, xidmət infrastrukturunun yaradılmasında, investorparın regiona cəlb olunmasında, dövlət proqramlarının hazırlanmasında, eləcə də Yerli İcra Hakimiyyətlərinin illik iş planlarının hazırlanmasında, Mədəniyyət Nazirliyində, Səhiyyə Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, Turizm Agentliyində istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu**. Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 128 səhifədir. İş 3 xəritə, 4 cədvəl, 10 diaqram, 123 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 5 səhifə, I fəsil – 35 səhifə, II fəsil – 40 səhifə, III fəsil – 33 səhifə, nəticə – 2 səhifə, ədəbiyyat siyahısı – 10 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 208754 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilmişdir.

Dissertasiya işinin birinci fəsli "**Rekreasiya-turizm ehtiyatlarının öyrənilməsinin elmi-metodiki əsasları və potensial rekreasiya-turizm ehtiyatlarının iqtisadi-coğrafi səciyyəsi**"nə həsr edilmişdir. Bu fəsildə rekreasiya-turizm ehtiyatları elmi-metodiki və nəzəri-praktiki əsaslara öyrənilmiş, təbii şəraitin və tarixi mədəniyyət abidələrinin rekreasiya-turizm təsərrüfatında istifadə imkanları tədqiq edilmişdir.

Rekreasiya-turizm ehtiyatlarının öyrənilməsi, onların əhəmiyyətinin, insan sağlamlığında rolunun, eləcə də qiymətləndirilməsinin aparılmasında dünya alimlərindən C.A. Olowookere, D.O. Taiw, S.F. McCool, R.N. Moisey, L. Roberts və D. Hall, P.F. Eagles, S.F. McCool, C.D. Haynes və başqalarını misal göstərmək olar. Tədqiq etdiyimiz Quba-Xaçmaz iqtisadi rayonunun kompleks şəkildə öyrənilməsi və elmi-metodiki tədqiqat işlərinin aparılması ilə bir çox yerli alimlər məşğul olmuşdu. Bu sahədə əsasən: H.Ə.Əliyev, B.Ə.Budaqov, , N.A.Babaxanov, Ə.C.Əyyubov, Ş.Q.Dəmirqayayev, A.A.Nadirov, Ş.Y.Göyçaylı, A.A.Salmanov, E.Q.Mehrəliyev, V.Ə.Əfəndiyev, Ç.N.İsmayılov, Q.S.Məmmədov, M.Y.Xəlilov, Z.S.Məmmədov, H.B.Soltanova, N.Ə.Paşayev, V.S.Dərgahov, Z.T.İmrani, N.H.Əyyubov, Z.N.Eminov, E.M.Hacıyev, S.T.Yeganlı, C.M.Cəfərov və başqa alim və tədqiqatçıların xidmətləri böyükdür.

Quba-Xaçmaz iqtisadi rayonu ərazisinin metodoloji baxımdan təhlilinin aparılmasında biz bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərlərində irəli sürülmüş nəzəri və praktiki təklif və müddəalardan geniş istifadə etməklə dissertasiya işimizdə coğrafiya elminin müxtəlif sahələrini əhatə etməklə, problemin iqtisadi və sosial-coğrafi baxımdan öyrənilməsinə xeyli kömək etmişdir. Belə

ki, rekreasiya-turizm ehtiyatları təbii, tarixi və mədəni sərvətlərə, eləcə də onlardan istifadə dərəcəsinə görə seçilir.

Təbii rekreasiya ehtiyatlarına təbii ərazi kompleksləri, onların tərkib hissələri, cəlbediciliyi, landşaftların növbələşməsi, ekzotikliyi, unikallığı və s. imkanları başa düşülür. Təbii şərait məhsuldar qüvvələrin həyat fəaliyyəti üçün vacib olan, lakin onların maddi-istehsal fəaliyyətində bilavasitə iştirak etməyən təbii komponentdir. İqtisadi nöqteyi-nəzərdən isə təbii sərvətlər turistlərin tələbatını ödəmək üçün istehsal və sosial sahələrdə istifadə oluna bilən elementdir.

Tədqiqat apardığımız Quba-Xaçmaz iqtisadi rayonunda davamlı sosial-iqtisadi inkişafa, milli gəlirin artırılmasına və turizm sahəsinin inkişaf etdirilməsinə nail olmaq üçün ilk növbədə təbii-coğrafi şəraitinin iqtisadi-coğrafi baxımdan qiymətləndirilməsinin aparılması mühüm əhəmiyyət kəsb edir. İqtisadi rayonun təbii şəraiti, rekreasiya-turizm ehtiyatları və rekreasiya-turizm obyektləri hündürlüklər üzrə qeyri-bərabər paylanmışdır. Təbii şəraitin zənginliyi, rekreasiya-turizm təsərrüfatının müxtəlif sahələrinin və ya istiqamətlərinin inkişaf etdirilməsinə zəmin yaradır.

Quba-Xaçmaz iqtisadi rayonunun relyefi regionda turizm infrastrukturunun ərazi təşkilinə təsir göstərən mühüm amillərdən biri hesab olunur. İqtisadi rayonun şimal-şərq hissəsinin yamacı cənub yamacına nisbətən mürəkkəb olub Baş suayırıcından eroziya nəticəsində ayrılan köndələn sıra dağlar əsasən şimal-şərqi istiqamətində uzanır və getdikcə alçalır. Baş Qafqaz silsiləsindən şimalda Yan silsilə uzanır. Regionun ən uca zirvəsi Şahdağ dağı hesab olunur və okean səviyyəsindən 4243 m. yüksəklikdə yerləşir. Şahdağ, Şahdüzü depressiyasını yarıb keçən Qusarçayın yuxarı axarındakı dərə ilə özünün cənub-şərqə olan hissəsindən ayrılır. Şahdağdan müxtəlif istiqamətlərə bir neçə qollar ayrılır ki, bunlardan da ən uzunu Suval silsiləsidir. Suval silsiləsi Laza kəndi paralelinə kimi yüksək dağlıq hissələrdəki çılpaq qayalıqlarda qədim buzlaqların izləri aydın görünür. Qədim buzlaqlar dağın yamacından

Şahnabad çayının yatağına kimi uzanaraq yamac boyu parçalanmışdır[3]. Bu ərazilərdə dağ turizmini (alpinizm) inkişaf etdirmək üçün hər cür əlverişli şərait vardır[4] .

Rekreasiya-turizm təsərrüfatını şərtləndirən əsas amillərdən biri iqlim ehtiyatıdır. Bildiyiniz kimi, iqlim yaradan əsas amillərə Günəş radiasiyası, hava küləklərinin sirkulyasiyası və səth örtüyü aiddir. Quba-Xaçmaz iqtisadi rayonunun iqlim şəraiti müxtəlif və rəngarəngdir. Buna səbəb, ərazinin hündürlük fərqləridir. Dörd zona (hündürlük qurşaqları) daxilində apardığımız araşdırmalar göstərir ki, iqtisadi rayonun ərazisində isti yarımsəhra və quru çöl, mülayim isti, rütubətli soyuq və dağ tundra iqlimi yayılmışdır. İqtisadi rayonun ərazisində temperaturun orta illik göstəricisi 8-10°C arasında dəyişir. İyun-avqust ayları nisbətən sərin keçir, havanın orta aylıq temperaturu $20^0$C (iyulda 19-24°C), günün bəzi vaxtlarda isə 37-39°C arasında dəyişir və mütləq maksimuma çatır. Şaxtasız günlərin sayı çox olub, il ərzində 185-235 gün təşkil edir. Məhz bu baxımdan iqtisadi rayonda yay turizmi daha yaxşı inkişaf etdirilib. Yanvar ayı ən soyuq ay hesab olunur və ərazinin dağlıq hissəsində orta aylıq temperatur $2\text{-}3^0$C şaxta, düzənliklərdə 1°C isti kimi qeydə alınmışdır. Ərazidə mütləq minimum temperatur –20°C, bəzən daha aşağı ola bilir. Qar örtüyünün davamlığı dağlıq ərazilərdə 50-80 gün, düzənliklərdə 20 gün təşkil edir[5]. Bu səbəbdən, Qusar rayonu ərazisində qış turizmini inkişaf etdirmək məqsədi ilə Şahdağ qış-yay istirahət kompleksi istifadəyə verilmişdir. Turizm kompleksinə çəkilmiş yol, qaz, elektrik xətləri əraziyə yaxın 7 ucqar kənd yaşayış məntəqəsində müəyyən kommunikasiya problemlərini həll etmişdir.

---

[3] Əliyev, H.Ə. Əfsanəvi dağlar / H.Ə. Əliyev, B.Ə. Budaqov. – Bakı: Elm, – 1973. – 86 s.

[4] Soltanova, H.B. Azərbaycan Respublikasında dağ turizm komplekslərinin yaradılması imkanları / “Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya” konfrans materialları, II kitab. – Bakı: [n.y.], – 2007. – s. 546-548.

[5] Əyyubov, Ə.C. Azərbaycan Respublikasının aqroiqlim atlası / Ə.C. Əyyubov, X.Ş. Rəhimov. – Bakı: Elm, – 1993. – 172 s.

Rekreasiya-turizm baxımından çaylar olduqca cəlbedici ərazilərdən biri hesab olunur. Quba-Xaçmaz iqtisadi rayonunda çaylar öz mənbəyini Baş Qafqaz sıra dağlarından götürüb, Xəzər dənizinə tökülür. Regionun ən böyük çayları Samur, Qusar, Qudyal, Vəlvələ, Ata, Gilgil, Şabran, Qara və s. çaylardır. Əsasən qar və yeraltı sularla qidalanan Samur çayı regionun ən böyük çayıdır. Samur çayının uzunluğu 216 km. təşkil edir. Ümumiyyətlə respublikamızın su ehtiyatının 7,1%-i bu bölgənin payına düşür. Regionun əsas suvarma mənbəyi Samur çayından 1940-ci ildə 92 min ha torpaq sahəsinin suvarılması üçün nəzərdə tutulmuş, 182 km uzunluğunda olan Samur-Abşeron kanalı çəkilmişdir[6].

Quba-Xaçmaz iqtisadi rayonu ərazisindən axan çayların böyük hidroturizm potensialı vardır. Relyef amili, çayların meşəliklərdən keçməsi, Xəzər dənizinə tökülməsi, sularının hidrokimyəvi tərkibinin təmiz olması və s. burada rekreasiya-turizm zonalarının yaradılmasını, hidroturizm inkişaf etdirilməsini əlverişli edir. Lakin bunlarla yanaşı, iri yaşayış məntəqələrindən, rekreasiya-turizm obyektlərindən, istehsalat sahələrindən keçən çaylar ekoloji çirklənməyə məruz qalır. Araşdırma nəticəsində məlum olmuşdur ki, çayların yuxarı axarları rekreasiya-turizm təsərrüfatı üçün daha əlverişli, aşağı axarları isə ekoloji çirklənməyə məruz qaldığı üçün burada rekreasiya-turizm obyektlərinin tikilməsi bir o qədər də məqsədəuyğun olmadığı bildirilmişdir.

Təbii rekreasiya-turizm ehtiyatlarının mühüm göstəricilərindən biri olan mineral, termal və soyuq bulaqlara Quba-Xaçmaz iqtisadi rayonunun dağətəyi meşəliklərində və yüksək dağlıq ərazilərində rast gəlmək olar. Regionda mövcud olan Qalaaltı, Xaltan, Düz Bilici, Cimi və s. mineral, termal və soyuq bulaqların müalicəvi xüsusiyyəti və kimyəvi tərkibi regionda kurort-rekreasiya təsərrüfatının inkişaf

[6] Рустамов, С.Г. Водный баланс Азербайджанской ССР / С.Г. Рустамов, Р.М. Кашкай. – Баку: Элм, – 1989. – 181 с.

etdirilməsi üçün böyük əhəmiyyət kəsb edir[7]. Tükənməz mineral su ehtiyatlarına malik olan regionda bulaqların əksəriyyəti mənşəyinə, minerallaşma dərəcəsinə, temperatur və kimyəvi tərkibinə, fiziki xassələrinə görə bir-birindən fərqlənir. Gələcəkdə bu suların əsasında rekreasiya-turizm sağlamlıq ocaqlarının yaradılmasında geniş istifadə oluna bilər.

Rekreasiya-turizm potensialının cəlbedici ərazilərindən biri olan meşələr öz funksiyalarına görə eroziyaya qarşı, su qoruyucu, çay kənarlarındakı qoruyucu meşələr, şəhər yaşıllığı, yol kənarındakı qoruyucu meşələr, istirahət və sanitar məqsədli kurort ərazilərdəki meşə sahələri və s. qruplara bölünür. Quba-Xaçmaz iqtisadi rayonu ərazisinin 10-11%-i meşələrlə örtülüdür. Ərazinin mürəkkəb fiziki-coğrafi şəraitə malik olması meşələrin qeyri-bərabər yayılmasına, quruluşuna, cins və yaş tərkibinin müxtəlifliyinə səbəb olmuşdur[8]. Meşələr əsasən Xəzər dənizinin Xaçmaz rayonu ərazisinin sahili boyu sahələrində, Şollar düzünün şərqində, orta dağlığın Quba və Qusar rayonları ərazilərində geniş yayılmışdır. Digər tərəfdən isə regionda meşə sahələrinin azalmasına insanların təsərrüfat fəaliyyəti, eləcə də təbii dağıdıcı hadisələr, digər tərəfdən isə iqlimin quraq günlərinin sayının artması, çayların və bulaqların səviyyəsinin düşməsi ilə əlaqədardır. Şabran çayından cənuba yovşan, yovşan-şoran və digər yarımsəhra bitkiləri geniş yayılmışdır.

Xəzər dənizinin sahil ərazilərinin mühüm rekreasiya-turizm ehtiyatlarından biri də qumlu çimərliklərdir. Sahilboyu qumlu çimərliklər regionda istirahət edən turistlərin əsas məkanı hesab olunur[9]. Bu zona insanların kütləvi istirahəti üçün olduqca əlverişli regionlardan biri hesab olunur. Qumlu çimərliklər regionun

---

[7] Əsgərov, Ə.H. Azərbaycanın mineral suları / Ə.H. Əsgərov. – Bakı: Maarif, – 1996. – 62 s.

[8] Məmmədov, Q.Ş. Meşə ekologiyası / Q.Ş. Məmmədov, K.S. Əsədov. – Bakı: Elm, – 2010. – 452 s.

[9] İsmayılov, Ç.N. Xəzər dənizinin təbii sərvətləri / Ç.N. İsmayılov. – Bakı: Nurlan, – 2007. – 185 s.

cəlbediciliyini artırır və turizm obyektlərinin tikintisi üçün münasib şərait yaradır.

Rekreasiya-turizm təsərrüfatı təbii şərait və onun komponentlərini öyrənilməklə insanın istirahətini və əyləncəsini təmin edən, mədəni-irs nümunələrini tanıdan, xidmət infrastrukturunun təkmilləşdirilməsi istiqamətlərini və onların tənzimlənməsi yollarını təmin edən bir amildir[10]. Rekreasiya-turist istirahət, əyləncə, sağlamlıq, dərketmə (tarixi və mədəni-irs abidələrinin tanıdılması), dini ziyarət və s. məqsədlər üçün səfərlərin edilməsidr.

Quba-Xaçmaz iqtisadi rayonunda təbii və tarixi mədəniyyət abidələrindən rekreasiya-turizm məqsədi ilə çox az istifadə olunur. Regionda müalicə-sağlamlıq ocaqlarının inkişaf etdirilməsi üçün təbii ehtiyatlar kifayət qədərdir. Lakin onların potensial imkanları yetərincə qiymətləndirilməmişdir. Ərazidə rekreasiya şəbəkələri çox zəif inkişaf etdirilir. Maraqlı səyahət yerləri olan bu təbii, tarixi-memarlıq və dini abidələr turistlər üçün daha çox maraq doğurur. Regionda təbiət abidələrinin ekoloji baxımdan mühafizə olunması, tarixi-memarlıq və dini abidələrin isə bərpa olunmasına ehtiyac vardır (şəkil 1.).

Qeyd edilməlidir ki, qloballaşma şəraitində cəmiyyətin davamlı inkişafının təmin edilməsində, eləcə də tarixi-coğrafi əlaqələrin qurulmasında və ənənəvi bəşəri dəyərlərin qorunub saxlanılmasında ən mühüm amillərdən biri rekreasiya-turizm təsərrüfatı hesab olunur. Bu da təbii və tarixi mədəniyyət abidələrinin əhəmiyyəti ilə ölçülür. Çünki mədəni-tarixi irsin qorunub saxlanması üzrə fəaliyyətin strateji istiqaməti və prioritetləri məhz ictimai maraqlarla bağlıdır. Bununla əlaqədar olaraq, təbii və tarixi mədəniyyət abidələrinin qorunmasının səmərəli mexanizmləri cəmiyyətin özündə ənənəvi irsin formalaşması və müəyyən edilməsi zərurətindən irəli gəlir.

---

[10] Преображенский, В.С. География и отдых / В.С. Преображенский, Ю.А. Веденин. – Москва: Знание, – 1971. – 48 с.




Şəkil 1. Quba-Xaçmaz iqtisadi rayonunda təbii və tarixi mədəniyyət abidələri və onların qruplaşdırılması (Müəllif tərəfindən tərtiq edilmişdir)

Tərtib etdiyimiz xəritədə yalnız təbii və tarixi mədəniyyət abidələri deyil, eləcə də onların bazasında potensial turizmin

qruplaşdırılması aparılmışdır. Qruplaşdırma: təbii mənzərəli yerlər, müalicə sağlamlıq potensialı, tarixi-memarlıq nümunələri və mədəni irs nümunələri əsasında verilmişdir. Hər bir qrup daxilində rekreasiya-turizm təsərrüfatının inkişafına təkan verə biləcək amillərin arealları müəyyən olunmuşdur. Bu da gələcəkdə regional proqramların yazılmasında və onların təhlilində köməkçi vasitə kimi istifadə edilə bilər.

Quba-Xaçmaz iqtisadi rayonunda təbii və tarixi mədəniyyət abidələrinin qruplaşdırılması prinsipi əsasında rekreasiya-turizm təsərrüfatının ərazi təşkili onun fəaliyyət istiqamətləri ilə iqtisadi səmərəliliyini təmin etməlidir. Rekreasiya-turizm təsərrüfatının inkişafı iqtisadi rayonda fəaliyyət göstərən xidmət sahələrinin də məqsədli şəkildə inkişafına təsir göstərə bilər. Qruplaşdırılmanın tətbiqi həm fərdi təbii və tarixi məkanların, həm də bütövlükdə rekreasiya-turizm təsərrüfatının rəqabət qabiliyyətini artırmağa imkan verir. Deməli, rekreasiya-turizm məkanı təsərrüfat fəaliyyətinin ərazi təşkili vasitəsi olub, ilk növbədə turistlər üçün olduqca cəlbedici ərazi hesab olunur.

Yuxarıda qeyd etdiyimiz amilləri nəzərə almaqla regionda turistlərin daha çox maraq dairəsində olan təbii-tarixi mədəniyyət abidələrini əks etdirən yeni turizm marşrutlarının hazırlanmasında istifadə edilə bilər.

Dissertasiya işinin ikinci fəsli "**Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının coğrafi aspektləri və sosial-iqtisadi inkişafda rolu**"na həsr edilmişdir. Bu fəsildə müasir dövrdə Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının mövcud vəziyyəti, zəruriliyi və onu şərtləndirən amillər, rekreasiya-turizm təsərrüfatının inkişafında sosial-iqtisadi bazanın əhəmiyyəti və müasir ərazi təşkili, eləcə də rekreasiya-turizm təsərrüfatının potensial imkanları və turizm marşrutları tədqiq edilmişdir.

Quba-Xaçmaz iqtisadi rayonu rekreasiya-turizm ehtiyatları ilə zəngin olan regionlarımızdan biridir. Lakin iqtisadi rayonun

rekreasiya-turizm ehtiyatlarının hazırkı dövrdə mənimsənilmə səviyyəsi çox aşağıdır. Xüsusilə müalicə-turizm ehtiyatlarından istifadə digər regionlara nisbətən zəifdir. Bununla yanaşı, ərazinin istirahət-əyləncə baxımından mənimsənilməsi çox yüksəkdir.

Quba-Xaçmaz iqtisadi rayonunda müalicə-sağlamlıq turizmini inkişaf etdirmək üçün çoxlu sayda müalicəvi əhəmiyyətə malik olan mineral və termal sular mövcuddur. İqtisadi rayon ərazisində tərkibi hidrokarbonatlı, sulfatlı, kalsiumlu və kükürdlü yüksək debitli mineral və termal sular var. Bunlara: Şabran rayonu ərazisində Qalaaltı, Qubada Cimi, Xaşı, Xaltan, Düzbilici, Buduq, Erfi, Xaçmazda İsti su, Nabran və s.-ni misal göstərmək olar. İqtisadi rayonda müalicə-sağlamlıq ocaqlarının yaradılması yolu ilə rekreasiya-turizm təsərrüfatının fəaliyyətinin il boyu aparılmasına nail olmaq olar. Yüksək gəlir gətirən müalicə-sağlamlıq turizmi regional baxımdan sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına, ümumi infrastruktutun təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə, yerli əhalinin iş yerləri ilə təminatına yaxından köməklik göstərə bilər.

Quba-Xaçmaz iqtisadi rayonunun təbii rekreasiya ehtiyatları ilə yanaşı, qədim etno-turizm cəhətdən daha cəlbedici olan kiçik kəndləri də vardır. Onların içərisində Xınalıq kəndi xüsusilə seçilir. Xınalıq kəndinə gedən yolun 2006-cı ildə ölkə prezidentinin göstərişi ilə tikilib istifadəyə verilməsi isə kəndə gələn turistlərin sayının kəskin artmasına səbəb olmuşdur. Belə ki, Qəçrəş meşəsi və yolun üzərində yerləşən kəndlərində (Qəçrəş, Qızılqazma, Küsnətqazma, Qırızdəhnə və s. kəndlərində) fəaliyyət göstərən kiçik turist istirahət obyektlərinə (Retro, Aynur, Xal-xal, Terras, Quba, Nazlı bulaq, Məst Dərğah, Minarə və s. istirahət mərkəzləri) gələn turistlərin sayı artmışdır. Qeyd etmək lazımdır ki, Quba rayonunu turist və istirahət mərkəzlərinin 80%-i bu ərazidə (Xınalıq yolu üzərində) yerləşmişdir. İlin hər fəslində bura gələn turistlərin sayı hər il artmaqdadır. Pandemiya dövründə turist axınları azalsa da, növbəti illərdə yenidən turist axınları artmış, həmçinin Xınalıq kəndinə gələn turistlərin

sarısında xarici turistləri sayının artması daha müsbət hall kimi qiymətləndirilir.

Zəngin təbii və tarixi mədəniyyət abidələrinə malik olan Quba-Xaçmaz iqtisadi rayonunun ərazisinə düşən Xızı-Siyəzən-Şabran-Xaçmaz-Quba-Qusar marşrutuna; Böyük Qafqazın yüksək dağlarından Şahdağ, Tufandağ, Beşbarmaq qayası və Müdafiə səddinin qalıqları (III-Vəsr), qədim Şabran şəhərinin xarabalıqları, Gilgilçay istehkamlar kompleksi, Çıraqqala (V əsr), Yalama və Nabranın sahil zonası, Şahdağ Milli Parkının bir hissəsi, Təngəaltı dərəsi, Qəçreş meşəsi, Afurca şəlaləsi (Quba), Şahnabat və Ləzə şəlalələri (Qusar), Dini abidələr, Cümə məscidi (XII ci əsr), Xınalıq kəndi, Quba məzarlığı (2007-ci il), Qusarda "Şahdağ qış-yay istirahət kompleksi" (2012-ci il), xalçaçılıq muzeyləri, təbii və tarixi-memarlıq abidələri aiddir[11].

Quba-Xaçmaz iqtisadi rayonu respublikamızın ən zəngin kurort-rekreasiya ehtiyatlarına malik olan ərazilərdən biridir. İqtisadi rayonun rekreasiya-turizm məqsədi ilə istifadə edilən əsas bölgəsi Yalama-Nabran zonası hesab edilir. Yalama-Nabran zonası sanatoriya, kurort-rekreasiya ocaqları, turizm obyektləri, mehmanxana və mehmanxana tipli müəssisələr ilə daha çox təmsil olunmuşdur. Burada istirahət və əyləncə məqsədi ilə gələn turistlər çoxluq təşkil edir. Ərazi özünəməxsus meşə-rekreasiya ehtiyatları ilə zəngindir. Dəniz və meşənin bir arada olduğu bu təbiət möcuzəsini amerikalı mütəxəssisçiləri Yalama-Nabran zonasını 2004-cü "İlin ən gozəl istirahət zonası" elan etmişdilər. Lakin antropogen təsirlər nəticəsində iqtisadi rayon ərazisində meşə sahəsi xeyli seyrəlmiş, meşələrin torpaqqoruyucu funksiyası zəifləmişdir. Bununla yanaşı, Xəzər dənizinin səviyyə tərəddüdü də regionun ekoloji inkişafına xeyli təsir göstərmişdir.

---

[11] Khasmammadova, A.M. The Historical and Cultural Monuments as Rekreational in Guba-Khachmaz Region of Azerbaican // American International Journal of Contemporary Research. – 2013. No 6, – 30 p.

Quba-Xaçmaz iqtisadi rayonunun Xəzərdənizi sahili ərazilərindən yalnız yay aylarında istifadə edilir. Lakin landşaft ehtiyatlarının rəngarəngliyi və iqlim xüsusiyyətləri regionun dağlıq hissəsində turizm-alpinizm ocaqlarının yaradılması üçün çox əlverişlidir. İqtisadi rayonda qış turizminin inkişafı üçün dağlıq regionlarda münasib turizm infrastrukturun yaradılması vacib şərtlərdən biridir. Qış mövsümündə yalnız gəzinti xarakterli turlar deyil, istirahətin tam təşkil olunması üçün dağ xizək və qış idman növləri ilə əlaqəli turlar təşkil oluna bilər. Bu baxımdan, Qusar rayonu ərazisində dəniz səviyyəsindən 1440-1640 m yüksəklikdə yerləşən, "Şahdağ" qış-yay Turizm İstirahət mərkəzini misal göstərmək olar.

Quba-Xaçmaz iqtisadi rayonunda turistləri rekreasiya-turizm baxımından daha çox cəlb edən ərazilərdən biri də Şahdağ Milli Parkıdır. Şahdağ Milli Parkı 8 dekabr 2006-cı ildə endemik bitkilərin, eləcə də otlaq ekosisteminin və meşələrin qorunub saxlanılması, nəsli kəsilməkdə olan heyvan növlərinin cins tərkibinin artırılması məqsədi ilə yaradılmışdır. Milli parkın qoruq ərazisi 73 min ha-dan çox, rekreasiya-turizm zonası 50 min ha-dan çox, xidmər sahəsi 5601 ha, təsərrüfat-istehsalat sahəsi isə 1689 ha-dır[12]. Burada rekreasiya-turizm təsərrüfatını inkişaf etdirmək üçün müxtəlif tip gecələmə yerləri, iaşə obyektləri, parkinq yerləri və s. qanunauyğun olaraq icarə əsasında istifadəyə verilmiş, ekoturizm həvəskarları üçün milli parkın daxilində turizm marşrutları hazırlanmış və fəaliyyət göstərməkdədir. Əldə olunan gəlir yerli infrastrukturun bərpasına, əhalinin gəlirlərinin artırılmasına, ətraf mühitin mühafizəsi işinə sərf olunur.

Son dövrlər iqtisadi inkişafla əlaqədar olaraq respublikamızda beynəlxalq standartlara uyğun mehmanxana və mehmanxana tipli müəssisələr tikilərək istifadəyə verilmişdir. Bunlara, 2011-ci ilin

---

[12] Khasmammadova, A.M. Tourizm recreation potential of the republic of Azerbaijan (Guba-Khachmaz economic region) // VI International Conference. – Varna: 4-11 June, 2010. – 527 p.

“Turizm ili” olması təkan vermişdir. Hazırda (2022-ci ildə) respublikamızda 757 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərir ki, bu da son 30 ilin ən yüksək göstəricisidir. Quba-Xaçmaz iqtisadi rayonunda isə bu gösrtərici 112 olub, respublika üzrə ümumi mehmanxana və mehmanxana tipli müəssisələrin 14,8%-ni təşkil edir. Respublikanın ümumi iqtisadi rayonları ilə müqayisədə göstəricinin kifayət qədər yüksək olmasına baxmayaraq, iqtisadi rayon daxilində mehmanxana və mehmanxana tipli müəssisələrin sayında ciddi fərqlər vardır. Belə ki, özünə xas təbii şəraitə, inkişaf potensialına, eləcə də qısa müddətli istirahətə və kiçik həcmli mehmanxanalara üstünlük verən Xaçmaz rayonuda ümumi mehmanxanaların 50,9% (57 mehmanxana) cəmlənmişdir. Bu da əsas etibarilə Xəzərsahili Nabran zonasında turizm obyektlərinin çoxluğu və insanların istirahət məqsədilə bu əraziyə üstünlük vermələri ilə əlaqədardır. Quba rayonunda 29, Qusar rayonunda isə 20 mehmanxana fəaliyyət göstərsə də, bu mehmanxanalar əsasən regional dayanıqlı fərqləri ilə seçilir. Çimərlik əraziləri ilə seçilən, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşən Şabran rayonunda 6 mehmanxana qeydə alınsa da, Sizəyən rayonunda mehmanxana təsərrüfatı ilə ümumiyyətlə yoxdur[13]. Bu da turizm sahəsində ciddi problemlərin yaranmasına, gələcəkdə turizmin prioritet sahə olmasına baxmayaraq onun inkişaf etdirilməsi üçün əlçatan bazanın olmamasına, eləcə də dövlət proqramları çərçivəsində turizmin inkişafının ləngiməsinə səbəb olmuşdur.

Rəsmi statistik məlumatlara əsasən 2022-ci ildə respublikamızda mehmanxana və mehmanxana tipli müəssisələrdən əldə olunan gəlir 355322,1 min manat olmuşdur ki, onunda 49036,9 min manatı, yəni 13,8%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşmüşdür. Bu göstəricini 2005-ci il ilə müqayisə etsək görərik ki, 33,6 dəfədən çox artım olmuşdur (diaqram 1.). Lakin mehmanxana və mehmanxana tipli müəssisələrin çox hissəsinin Xaçmaz

---

[13] Azərbaycanın regionları, 2023 (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Çaşıoğlu Eİ, – 2023. – 864 s.

rayonunda cəmləşməsinə baxmayaraq, gəlirlərin çox hissəsi Qusar (42,3%) və Quba (31,1%), kiçik bir hissəsi isə Şabran (14,1%) rayonunun payına düşür[14]. Deməli, yüksək gəlir əldə etmək üçün mehmanxanaların sayı deyil, onların fəaliyyət istiqaməti və xidmət strategiyası ön planda olmalıdır.




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda Turizm, 2023.
Diaqram 1. Quba-Xaçmaz iqtisadi rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat

Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri diaqramına nəzər salsaq aydın görmək olar ki, bu müəssisələrdən əldə olunan gəlirin əsas hissəsi Qusar və Quba rayonlarının payına düşmüşdür. İnkişafın ümumi trendi müsbət olsa da, 2017 və 2020-ci illərdə kəskin azalma ilə müşahidə edilir. 2017-ci ildə manatın 2 dəfə dəyər itirməsi, devalivasiyası və son 3 ildə ən yüksək inflyasiya səviyyəsinin (12.9%) məhz bu ildə qeydə alınması buna səbəb olmuşdur. 2020-ci ildə isə pandemiya səbəbindən mehmanxana təsərrüfatına ciddi ziyan dəymişdir ki, bunun da nəticəsində gəlirlər kəskin azalmışdır. Bütün bunlarla yanaşı, qeyd edilməlidir ki, Siyəzən rayonunda 2006-ci ildən etibarən mehmanxana və

[14] Azərbaycanda turizm (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Çaşıoğlu Eİ, – 2023. – 100 s.

mehmanxana tipli müəssisələrdən əldə olunan gəlir cüzi xarakter daşıdığından onun barəsində heç bir statistik məlumat yoxdur.

Mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəricilərindən biri də xərclərlə bağlıdır. Xərclər ümumi əldə olunan gəlirlərin tendensiyasına ciddi təsir göstərir. Quba-Xaçmaz iqtisadi rayonunda menmanxana təsərrüfatının xərclərini təhlil etdikdə məlum olur ki, gəlirlər kimi xərclərdə eyni qalmamış və dəyişkənliyə uğramışdır. Bu dəyişlənliyi 2010 və 2022-ci illər üzrə araşdırdıqda xərclərin kəskin dəyişdiyinin şahidi oluruq. Belə ki, 2010-cu ildə ümumi iqtisadi rayon üzrə xərclərin 76,5%-ni təşkil edən Xaçmaz rayonu 2022-ci ildə kəskin azalmaya səbəb olmuş və 11,2% olmuşdur. Bu göstəricini gəlirlərlə də əlaqələndirmək olar. Çünki Xaçmaz rayonun tədqiqat illəri ərzində gəlirləri xeyli azalmışdır. Lakin Qusar (6,2%-dən 48,0%-ə), Quba (12,0%-dən 25,9%-ə) və Şabran (0,4%-dən 14,9%-ə) rayonlarında xərclər artmışdır. Siyəzən rayonunda isə mehmanxana təsərrüfatının olmaması səbəbindən gəlirlər kimi xərclər də qeydə alınmamışdır (diaqram 2.).




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda Turizm, 2023.

Diaqram 2. Quba-Xaçmaz iqtisadi rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrin xərcləri, min manat

Qeyd edim ki, Quba-Xaçmaz iqtisadi rayonunda respublika üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti nəticəsində olan xərclər daim yüksək olmuşdur. 2010-cu ildə bu

göstərici 18,4%, 2022-ci ildə 18,7%-ni təşkil etmişdir[15]. Bu göstərici orta respublika göstəricilərindən xeyli yüksəkdir. Bəzi mütəxəssislər bunu yeni tikilən və tikilməkdə olan mehmanxanalarla, bəziləri isə turizm infrastrukturunun yenidən qurulması ilə əlaqələndirir. Amma hər bir halda xərclərin yüksək olması rekreasiya-turizm təsərrüfatının inkişafını ləngidən aillərdən biri hesab olunur.

Azərbaycan Respublikası və Quba-Xaçmaz iqtisadi rayonunda yataq yerlərinin illər üzrə tendensiyasına nəzər salsaq görərik ki, 2005-2022-ci illər ərzində Azərbaycan Respublikasında daim artım tendensiyası, Quba-Xaçmaz iqtisadi rayonunda isə 2011 və 2016-cı illər istisna olmaqla digər illərdə artım müşahidə olunmuşdur. Bu artım yeni tikilib istifadəyə verilmiş mehmanxanaların, otellərin və motellərin hesabına qeydə alınmışdır. Lakin Siyəzən rayonunda azalma, Şabran rayonunda isə 2019-cu ildən sonra artım müşahidə olunmuşdur ki, bu da Siyəzən rayonunda turizm obyektlərinin azlığı və mövcud müəssisələrin bərbad vəziyyətdə olması, Şabran rayonunda yeni istirahət və turizm mərkəzlərinin tikintisi ilə əlaqədardır. Bunlarla yanaşı, 2022-ci ildə Şabran rayonunun Pirəbədil kəndi yaxınlığında 12,7 ha ərazidə "Shabran Hotel & Resort" turizm kompleksi istifadəyə verilmişdir. Bu gələcəkdə rayonda turizm-mehmanxana təsərrüfatının daha inkişaf etdirilməsinə yönəldilmişdir.

Turizm təsərrüfatının inkişafını müəyyən edən əsas göstəricilərdən biri də mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı ilə müəyyən olunur. Belə ki, yerləşdirilmiş şəxslərin sayı mehmanxana təsərrüfatının gələcək inkişafı ilə sıx surətdə bağlıdır. Nömrə və yerlərin bronlaşdırılmasında yerləşdirilmiş şəxslərin sayı əsas göstərici hesab olunur. Bu göstərici mehmanxana təsərrüfatının gəlirləri ilə yanaşı, gələcək fəaliyyət strategiyasının da müəyyən olunmasında yardımçı rolunu oynayır.

---

[15] Azərbaycanda turizm (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Çaşıoğlu Eİ, – 2023. – 100 s.

Azərbaycan Respublikasında mehmanxana təsərrüfatı öz inkişaf tendensiyası ilə diqqəti cəlb etdiyi kimi onlarda yerləşdirilmiş şəxslərin sayında da daim artım müşahidə edilmişdir. Lakin 2019 və 2020-ci illərin müqayisəsində bu göstərici kəskin olaraq, yəni 2,9 dəfə azalmış, növbəti illərdə isə yenidən artım nəzərə çarpmışdır. Belə bir göstərici Quba-Xaçmaz iqtisadi rayonunda da müşahidə edilmişdir. Belə ki, müvafiq illərin təhlilində iqtisadi rayonda olan mehmanxanalarda yerləşdirilmiş şəxslərin sayı 2,3 dəfə azalmaya məruz qalmışdır. Bütün bunlara pandemiya və qapanmalar səbəb olmuşdur. Amma bir faktıda nəzərə çatdırmaq lazımdır ki, növbəti illərdə, yəni 2020 və 2022-ci illərin müqayisəsində yerləşdirilmiş şəxslərin sayı Azərbaycan Respublikası üzrə ümumi olaraq 222407 nəfər azalsa da, Quba-Xaçmaz iqtisadi rayonunda 39192 nəfər artmışdır (cədvəl 1).

Cədvəl 1

Azərbaycan Respublikası və Quba-Xaçmaz iqtisadi rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı, nəfər

| | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qusar | 1396 | 11345 | 34700 | 64425 | 59378 | 68228 | 35892 | 40573 | 58699 |
| Xaçmaz | 50260 | 22330 | 15851 | 19163 | 27771 | 28165 | 4303 | 20678 | 22267 |
| Quba | 13888 | 23761 | 31332 | 64611 | 65728 | 66870 | 26232 | 68072 | 100076 |
| Şabran | 437 | 1174 | 1115 | 1236 | 529 | 30191 | 17640 | 57045 | 51604 |
| Siyəzən | 83 | - | - | - | - | - | - | - | - |
| İqt. rayon | 66064 | 58610 | 82998 | 149435 | 153406 | 193454 | 84067 | 186368 | 232646 |
| Azər. Resp. | 438479 | 838145 | 1122068 | 1414708 | 1749475 | 1919765 | 668813 | 1172123 | 1697358 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycanda Turizm, 2023

Turizmdə səyahət təbii-turizm cəlbediciliyi nəzərə alınmaqla həyata keçirilir. Çünki səyahət davranışı daha yaxşı başa düşülən, səfərin məqsədi və gediləcəyi yer isə cəlbedici olmalıdır. Belə bir

əlaqə turist peşəkarlığından asılıdır[16]. Turizmin regional bir sistem kimi formalaşması və inkişafı turizm marşrutlarının təşkili modellərinə əsaslanır. Çünki turizm marşrutları turistlərin istəyi və davranışını izah edir[17].

Yuxarıda qeyd olunanları nəzərə almaqla, Quba-Xaçmaz iqtisadi rayonunda turizm marşrutlarını bir neçə istiqamətə ayıra bilərik:

– qədim kəndlər, etno-mədəni yaşayış məntəqələrinə səfərlərin təşkili;

– müalicəvi mineral bulaqlara səfərlər;

– tarixi-mədəni yerlərini (məscid, turbə, qala divarları, dini abidələrin xarabalıq və s.) dərketmə;

– təbiətə səyahətlə bağlı ekoloji maarifləndirmə turları;

– hidroloji təbiət abidələrinə baxmaq və şəkil çəkdirmək və s.

Dissertasiya işinin üçüncü fəsli "**Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının perspektiv inkişaf istiqamətləri**"nə həsr olunmuşdur. Bu fəsildə rekreasiya-turizm rayonlaşdırılmasının əsas xüsusiyyətləri və ərazi təşkilinin verilmiş, rekreasiya-turizm təsərrüfatının perspektiv inkişaf istiqamətləri müəyyən edilmiş və inkişafın strateji istiqamətləri işlənilib hazırlanmışdır.

Azərbaycan iqtisadiyyatının yeni və perspektivli sahəsi kimi rekreasiya-turizm təsərrüfatı geniş imkanlara malikdir. Bu imkanlardan daha səmərəli istifadəni təşkil etmək üçün rekreasiya-turizm rayonlaşdırılmasının aparılması tələb olunur ki, bu da təbii-iqlim resurslarının mövcudluğu, landşaftların cəlbediciliyi və müxtəlifliyi, mədəni-irs nümunələri və tarixi-memarlıq abidələrinin zənginliyi ilə ölçülür.

---

[16] Fridgen, J.D. Environmental psychology and tourism // Annals of tourism research, – 1984. No 11, – p. 19-39.

[17] Flognfeldt, T. The tourist route system – models of travelling patterns // Belgeo, – 2005. No 1-2. – p. 1-26. Doi: 10.4000/belgeo.12406

Rekreasiya-turizm rayonlaşdırılması aparıldıqda onun perspektiv rekreasiya zonaları, yerləşdiyi ərazinin təbii və tarixi xüsusiyyətləri, əhalinin sıxlığı, turistləri qəbul edən gecələmə yerləri, qidalanma və istirahət mərkəzlərinin xüsusiyyətləri də nəzərə alınmalıdır. Bununla yanaşı, hər bir regionda rekreasiya-turizm rayonlaşdırılması aparıldıqda yeni yanaşma metodlarından istifadə olunmalı, ərazidə dövlət əhəmiyyətli obyektlər müəyyən olunmaqla, onların əsasında müvafiq xəritələr tərtib edilməlidir. Xəritələr tərtib edilən zaman, hər bir regionun təbii şəraiti, ehtiyatları və antropogen mənşəli mədəni abidələri ilə yanaşı, onun özünəxas adət-ənənələridə nəzərə alınmalı, yerli əhalinin sosial durumu, təsərrüfat strukturu və inkişafının perspektiv sahələri öyrənilməlidir.

Rayonlaşdırılma prosesi davamlı inkişafı nəzərdən keçirməyə imkan verir. Çünki inkişafın sonu olmadığı üçün rayonlaşdırılma da bütün yekdil mərhələlər üzrə həm qarşılıqlı əlaqəni, həm də inkişafın təminatçısı qismində çıxış edir. Buna aşağıda qeyd olunan konteksdə baxmaq olar[18]:

– funksional adekvat tərəfləri müəyyən etmək;
– müsbət təsirə məruz qalan bütün komponentləri inkişafa cəlb etmək;
– azad bazar prinsipləri əsasında tərəqqinin sürətləndirilməsi;
– siyasi, iqtisadi, sosial və intellektual kapitalın artırılması.

Quba-Xaçmaz iqtisadi rayonunun təbiətinin zənginliyi, onun təbii şəraitinin müxtəlifliyinə səbəb olmuş, ərazidə fəaliyyət göstərən rekreasiya-turizm müəssisələri və onların inkişaf xüsusiyyətləri nəzərə alınmaqla bir sıra daxili fərqlər yaranmışdır. Bu üstünlüklər və fərqlər tədqiqat apardığımız Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm rayonlaşdırılmasının təbii, tarixi, mədəni və iqtisadi amilləri nəzərə alınmaqla aparılmasını tələb edir.

[18] Khakee, A. Community planning / A. Khakee. – Swedish: Student literature, – 2000. – 171 p.

Ümumiləşdirilmiş şəkildə yuxarıda da qeyd etdiyimiz parametrlər əsasında Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm rayonlaşdırılmasını aşağıdakı kimi aparmışıq (şəkil 2.):

1. **Xəzərsahili turizm zonası** – Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhəddindən başlayaraq Şabran rayonunun cənub sərhədinə qədər geniş bir sahəni əhatə edir. Əlverişli iqlim şəraiti, meşə ehtiyatları və qumlu çimərlikləri ilə seçilir. Turistlərin istirahəti üçün münasib ərazi hesab olunan zonada infrastruktur sahəsi yaxşı inkişaf etdirilmişdir.

2. **Qusar turizm zonası** – Qusar maili düzənliyinin cənub-qərbindən Böyük Qafqaz dağlarının Yan silsiləsinədək davam edir. Zonanın Rusiya Federasiyası ilə həmsərhəd olmasını və Xəzərsahili Yalama-Nabran zonasının yaxınlığında yerləşməsi, eləcə də, təbii landşaftın müxtəlifliyi və əlverişli iqlim şəraiti burada kurortlar, istirahət zonaları və turist komplekslərinin təşkilinə geniş imkanlar verir.

3. **Şahdağ turizm zonası** – Qusar və Quba rayonlarının dağlıq və dağətəyi ərazilərini əhatə edən bu zonanın əsas hissəsi Böyük Qafqazın Yan silsilə və Baş Qafqaz silsiləsindən ibarətdir. Zonada insanların istirahətini təmin etmək üçün əsas diqqət dağ turizminin inkişafına və tarixi mədəniyyət obyektlərinə turizm marşrutların təşkil olunmasına yönəldilməlidir.

4. **Qəçrəş turizm zonası** – Kifayət qədər təbiət abidələri ilə zəngin olan Qəçrəş turizm zonasında çoxlu sayda istirahət mərkəzləri mövcuddur. Turizm zonası Xəzərsahili turizm zonasından sonra turistlərin regionda daha çox cəmləşdiyi, yay aylarında isə ümumi respublika üzrə turist səfərlərinin daha çox gəldiyi ərazilərdən biri hesab olunur.

5. **Qalaaltı-Zeyvə turizm zonası** – Şabran və Siyəzən rayonlarının dağətəyi ərazilərini əhatə dən bu zonanın ən görməli və sağlamlıq məqsədi ilə turistlərin daha çox cəlb edir. Dövlətin dəstəyi və investorların cəlb edilməsi yolu ilə ərazidə beynəlxalq əhəmiyyətli

sağlamlıq və müalicə kurort-santoriyalarının yaradılmasına nail olmaq mümkündür.




Şəkil 2. Quba-Xaçmaz iqtisadi rayonunun rekreasiya-turizm rayonlaşdırılması (Müəllif tərəfindən tərtiq edilmişdir)

Quba-Xaçmaz iqtisadi rayonunda bazar münasibətləri şəraitində rekreasiya-turizm təsərrüfatının inkişafı xidmət sahələrinin

iqtisadi münasibətləri məcmusu kimi çıxış edir. Bütün bunlar nəzərə alınmaqla rekreasiya-turizm təsərrüfatında xidmət sahələrinin modellərinə ehtiyac yaranır. Modernləşdirilmə mövcud rəqabətin səviyyəsinə əsaslanaraq, milli və ya regional rekreasiya-turizm bazarında müəyyən növ xidmət subyektinin müasir vəziyyəti xarakterizə olunur. Bu zaman, xidmət sahəsində keyfiyyətin yaxşılaşdırılması, rəqabət mühitinin yaradılması, davamlı iqtisadi inkişafa nail olunması və onun idarəedilməsi əks edilir. Bütün qeyd edilən komponentlər əsasında tərəfimizdən xidmət sahələrinin bazar modellərinin təsnifatı aparılmışdır (cədvəl 2).

Cədvəl 2

**Rekreasiya-turizm təsərrüfatında xidmət sahələrinin bazar modellərinin təsnifatı**

| Təsnifatın xüsusiyyətləri | Bazar modelləri | | |
|---|---|---|---|
| | Azad iqtisadiyyat | Regional mühiti | Monopoliya |
| Xidmət göstərən müəssisələr sayı | Həddən artıq çox | Çoxlu sayda kiçik həcmli müəssisələr | Bütün sahələri əlində cəmləşdirir |
| Xidmətlərin növü | Standart | Diferensial | Unikal |
| Qiymətlərə nəzarət | Nəzarət yoxdur | Dar çərçivədə nəzarət | Əhəmiyyətli dərəcədə nəzarət |
| Rəqabət mühiti | Azad rəqabət mühiti | Rəqabətin qeyri-müəyyənliyi | Rəqabəti özü müəyyən edir |

Qeyd: Müəllif tərəfindən tərtib edilmişdir.

Təqdim olunan bazar modellərini Quba-Xaçmaz iqtisadi rayonuna tətbiq etsək görərik ki, rekreasiya-turizm təsərrüfatının xidmət sahələri daha çox regional mühit təsnüfatına uyğun gəlir. İqtisadi rayonun ərazisində xidmət göstərən müəssisələrin sayı çox olsa da onlar əsasən kiçik həcmlidir və yay aylarında fəaliyyət göstərir. Bu müəssisələr turistlərə diferensial xidmətlər göstərir və qiymət siyasətinə tam olaraq nəzatər edə bilmirlər. Qiymətlər bazar iqtisadiyyatı şəraitinə uyğun gəlsələr də, onların tam olaraq

tənzimlənməsində çətinliklər var. Bu sahədə rəqabət mühiti qeyri-müəyyənliyi ilə diqqəti cəlb edir, kiçik və iri şirkətlər arasında isə kəskin fərqlərin mövcuddur.

Azərbaycan Respublikasında olduğu kimi, Quba-Xaçmaz iqtisadi rayonunun da iqtisadi potensialının artırılması və sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətlərindən biri əhalinin iş yerləri ilə təmin edilməsidir. Bunun üçün Quba-Xaçmaz iqtisadi rayonunda əmək ehtiyatlarının işlə təmin edilməsi, əhalinin istehsal sahələrinə cəlb olunması, yüksək dağlıq ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsi, infrastruktur sahələrinin inkişafı yollarının öyrənilməsi və gündəlik həyatımıza tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi rayonda rekreasiya-turizm infrastrukturunu sürətlə inkişaf etdirmək və onun səmərəliliyini əhəmiyyətli dərəcədə artırmaqla yaranmış mənfi halların aradan qaldırılmasına, xidmət sahələrinin artırılmasına, əmək qabiliyyətli əhalinin iş yeri ilə təmin edilməsinə nail olmaq olar.

Quba-Xaçmaz iqtisadi rayonunda məşğul əhalinin sayı 2015-2022-ci illər üzrə demək olar ki, stabil inkişaf tendensiyasında olmuş və 2022-ci ildə iqtisadi rayonda 249704 nəfər əhali məşğul əhali kimi qeydiyyata alınmışdır. Bu da ümumi respublika üzrə məşğul əhalinin 5,1%-i deməkdir. İqtisadi rayonda əhali məşğulluğunda əsas yerləri Xaçmaz (31,3%) və Quba (30,2%) rayonları tutur. Qusar rayonunda bu göstərici 20,4%, Şabranda 10,6%, Siyəzəndə 7,5%-dir[19]. Göstəricilərin fərqli olması rayon əhalisinin sayı, onlarda təsərrüfat sahələrinin strukturu və sahibkarlıq subyektləri ilə bağlıdır. Burada rekreasiya-turizm təsərrüfatı daha yaxşı inkişaf etdirilmiş olan Xaçmaz, Quba və Qusar rayonlarının göstəriciləri daha yüksəkdir. Qeyd edim ki, iqtisadi rayon əhalisinin böyük hissəsi kənd yaşayış məntəqələrində, xüsusən yüksək ərazilərdə məskunlaşmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq qəbul edilmiş dövlət proqramları çərçivəsində

---

[19] Əmək bazarı (statistik məcmuə) / Rəhbər T. Budaqov. – Bakı: Çaşıoğlu Eİ-MMC, – 2023. – 192 s.

nəzərdə tutulmuş tədbirlərlə əlaqədar 2022-ci il ərzində respublikada 110448 yeni sahibkarlıq subyektləri fəaliyyətə başlamışdır. Regionda 71280 yeni iş yerləri açılmış, onların da 6275-i yeni yaradılmış müəssisələrin payına düşmüşdür. Quba-Xaçmaz iqtisadi rayonunda bu göstəricilərin müvafiq olaraq 6655-i yeni sahibkarlıq subyektlərinin, 1877-i yeni iş yerlərinin 215-i isə yeni yaradılmış müəssisələr hesabına olduğu bildirilir. Yeni sahibkarlıq subyektləri və yeni açılmış iş yerlərini respublika və Quba-Xaçmaz iqtisadi rayonu ilə müqayisə etsək görərik ki, göstəricilər o qədərdə ürəkaçan deyildir. Respublikanın rekreasiya-turizm cəhətdən ən cəlbedici regionu olan Quba-Xaçmaz iqtisadi rayonu respublika üzrə yeni sahibkarlıq subyektləri 6,0%-ni, yeni iş yerlərinin 2,6%-ni, onlardan da yeni yaradılmış müəssisələrin payıda düşən hissəsi 3,4%-ni təşkil edir. Müəyyən edilmişdir ki, yalnız mehmanxana təsərrüfatında çalışanlar iqtisadi rayonda məşğul əhalinin 0,9%-ni təşkil edir.

Bildiyimiz kimi, rekreasiya-turizm xidməti geniş əmək tutumlu sahə olub, əsas etibari ilə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün geniş perspektiv imkanlara malikdir. Rekreasiya-turizm xidmətindən əldə olunan gəlir isə yerli sahibkarlarla yanaşı, onun birbaşa iştirakçıları arasında bölüşdürüldüyündən istehsalçının marağına səbəb olur. Belə ki, rekreasiya-turizm təsərrüfatının inkişaf etdirilməsi yeni iş yerlərinin açılması və işsizliyin səviyyəsinin azaldılması ilə yanaşı, miqrasiya axınının qarşısının alınmasında və yeni yaşayış məskənlərinin yaradılmasında böyük əhəmiyyət kəsb edir[20]. Lakin bir faktıda nəzərə almaq lazımdır ki, rekreasiya-turizm təsərrüfatının bəzi iş yerləri mövsümi xarakter daşıyır və daha çox qadın əməyindən (xadimə, qabyuyan, paltaryuyan, paltar ütüləyən, yemək bişirən və s.) istifadə olunur. Bu isə yerli sakinlərə əlavə gəlir əmələ etməyə, bununla da ailənin sosial vəziyyəti yaxşılaşdırılmasına imkan yaradar.

[20] Салманов, А.А. Туризм в тюркоязычных странах СНГ / А.А. Салманов. – Баку: Элм, – 2005. – 160 с.

Azərbaycanda dinamik iqtisadi inkişafın sürətlənməsinə, həyatın bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan, dayanıqlı inkişafın əsas elementlərindən biri hesab olunan məşğulluq əhalinin həyat və təsərrüfat fəaliyyətində mühüm rol oynayır. Bu baxımdan, rekreasiya-turizm təsərrüfatında işləyənlərin bilik və bacarıqlarını artırmaq məqsədilə ixtisasartırma kursları təşkil olunmalı, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli turizm sisteminin müasirləşməsi, turizm idarəçiliyi üçün yüksək mənəvi-əxlaqı keyfiyyətləri, intelektli, savadı ilə fərqlənən yüksək ixtisaslı kadrların hazırlanması prioritet məsələ olaraq qalmaqdadır.

# NƏTİCƏ

Apardığımız araşdırma və əldə olunmuş çoxsaylı materiallar əsasında yerinə yetirilmiş tədqiqat işində aşağıdakı nəticə və təkliflər formalaşdırılmışdır:

1. Quba-Xaçmaz iqtisadi rayonunda rekreasiya-turizm təsərrüfatının inkişaf istiqamətlərini müəyyən etmək üçün onun rekeasiya-turizm ehtiyatları elmi-metodiki və nəzəri-praktiki əsasda tədqiq edilməklə regionun təbii şəraiti və ehtiyatları, eləcə də tarixi mədəniyyət abidələri qruplaşdırılmışdır. Qruplaşdırma – təbii mənzərəli yerlər, müalicə sağlamlıq potensialı, tarixi-memarlıq nümunələri və mədəni irs əsasında aparılmışdır.

2. Quba-Xaçmaz iqtisadi rayonunun təbii şəraiti, eləcə də təbii və tarixi mədəniyyət abidələri rekreasiya-turizm baxımından dəyərləndirilmiş, rekreasiya-turizm xidmət sahələrinin bazar modellərinin təsnifatı verilmiş, Qusar-Sudur, Qusar-Ənig, Qusar-Aşağı Ləgər, Quba-Xınalıq, Quba-Buduq, Xaçmaz-Zubovka, Şabran-Birinci Nügədi, Siyəzən-Xaltan və s. piyada, at belində, velosiped turları, dağ turizmi (alpinizm) kimi turizm marşrutları işlənilmişdir.

3. Quba-Xaçmaz iqtisadi rayonunun təbii şəraiti, tarixi mədəniyyət abidələri və iqtisadi amilləri nəzərə alınmaqla rekreasiya-turizm rayonlaşdırılması: Xəzərsahili, Qusar, Şahdağ, Qəçrəş və Qalaaltı-Zeyvə olmaqla beş turizm zonasına ayrılmışdır. Bölgüdə əsas üstünlük landşaftın ekzotikliyinə, iqlimin komfortluğuna, mineral və termal suların yayıldığı ərazilərə, tarixi mədəniyyət abidələrinə, məskunlaşma areallarına, rekerasiya-turizm obyektlərinin mövcud olduğu yerlərə verilmişdir.

4. Rekreasiya-turizm təsərrüfatının dayanıqlı ərazi təşkili mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti ilə bağlıdır. Quba-Xaçmaz iqtisadi rayonunda 112 mehmanxana fəaliyyət göstərir, onlardan da 490136,9 min manat gəlir əldə olunmuşdur ki, bu da respublika üzrə mehmanxanaların 14,8%-i,

əldə olunan gəlirin 13,8%-i deməkdir. Lakin aparılan statistik-riyazi təhlillər nəticəsində müəyyən edilmişdir ki, mehmanxanaların çox hissəsinin Xaçmaz (50,9%-i) rayonunda cəmləşməsinə baxmayaraq, gəlirlərin 12,6%-i bu rayonun payına düşmüşdür. Qusar rayonu 42,3%, Quba rayonu 31,1%, Şabran rayonu 14,1% olmaqla bu göstəricidə Xaçmaz rayonunu üstələyir.

5. Rekreasiya-turizm təsərrüfatının strateji fəaliyyət istiqamətləri olan turizm ocaqları, istirahət mərkəzləri, sanatoriya-kurort və mehmanxanalarının çox hissəsi Quba-Xaçmaz iqtisadi rayonunun dəniz sahili və dağətəyi ərazilərində yerləşir. Lakin onların böyük əksəriyyəti yalnız yay mövsümündə fəaliyyət göstərdiyi üçün əhalinin əmək məhsuldarlığı aşağı düşür. Quba-Xaçmaz iqtisadi rayonunda respublika üzrə məşğul əhalinin 5,1%-i, işsizlərin isə 6,1%-i cəmlənmişdir. Müəyyən edilmişdir ki, yalnız mehmanxana təsərrüfatında calışanlar iqtisadi rayon üzrə məşğul əhalinin 0,9%-ni təşkil edir.

## Təkliflər

1. Quba-Xaçmaz iqtisadi rayonunda qədim tarixə və özünəməxsus mədəniyyətə malik olan kənd yaşayış məntəqələri siyahıya alınmalı, müasir metod və metodikaların tətbiqi ilə kəndlərin turizm potensialının qiymətləndirilməsi aparılmalı, müasir turizmin infrastruktur şəbəkəsi yaradılmalı, savadlı turoperatorlar hazırlanmalı və təbliğat-təşviqat işləri aparılmalıdır.

2. Quba-Xaçmaz iqtisadi rayonunda turistlərin daha çox marağına səbəb olan kəndlər beynəlxalq turizm marşrutuna daxil edilməli və tarixi mədəniyyət abidələri kimi qorunub gələcək nəsillər üçün saxlanılmalıdır.

3. İnsanların istirahəti, sağlamlığı və müalicəsi üçün olduqca əlverişli regionlardan biri olan Quba-Xaçmaz iqtisadi rayonunda turistlərin kütləvi tələbatını ödəyən kurort-sanatoriya komplekslərinin yaradılmasına böyük ehtiyac vardır.

4. Quba-Xaçmaz iqtisadi rayonunda istirahət və müalicəni tam təmin edmək üçün təbii-bioloji, kurortoloji, geoloji, hidrogeoloji və digər tədqiqatlar aparılmaqla daha perspektiv ərazilər müəyyən olunmalı, onların bazasında yeni müasir standartlara cavab verən kurort-sanatoriya kompleksləri yaradılmalıdır.

5. Əmək tutumlu sahələrdən bir hesab olunan rekreasiya-turizm təsərrüfatının inkişafı yeni iş yerlərinin yaradılmasında müstəsna rol oynaya bilər. Bunun üçün dövlət tərəfindən maliyyə dəstəyi olmalı, yerli və xarici investorlar bu sahəyə cəlb olunmalı, yerli sahibkarlara güzəştli əsaslarla kreditlər verilməlidir.

## Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər


1. Xasməmmədova, A.M. Azərbaycanda turizmin inkişaf perspektivləri və bəzi problemlərinə dair // // – Bakı: ADPU-nun Xəbərləri, – 2006. №2, – s. 272- 277.
2. Xasməmmədova, A.M. Böyük Qafqazın Şimal-Şərq yamacının rekreasiya imkanlarına dair // – Bakı: ADPU-nun Xəbərləri, – 2006. №2, – s. 217-220.
3. Xasməmmədova, A.M. Hacıyey, E.M. Quba-Xaçmaz iqtisadi rayonunda mövcud olan tarixi-memarlıq abidələrinin turizmin inkişafında rolu // AMEA Coğrafiya Cəmiyyətinin əsərləri. – Bakı:– 2008. XII cild, – s. 417-423.
4. Xasməmmədova, A.M. Quba-Xaçmaz iqtisadi rayonunda turizm sənayesinin inkişaf istiqamətləri // – Bakı: AMEA Coğrafiya Cəmiyyətinin əsərləri. – 2009. XIV cild, – s. 302-304.
5. Khasmammadova, A.M. Truism recreation potential of the republic of Azerbaijan (Guba-Khachmaz economic region) // – Varna: Стратегия качества в промышленности и образования, Материалы (В4-х Томах) Том 1 (1), VI İnternational Conferance, Strategy of Quality in industry and Education, Procedings. – 2010. №11, – p. 527-530.
6. Хасмамедова, А.М. Современные проблемы преподавания экологии // – Баку: “Инновация, Качество Образования и Развитие” Материалы I международной научной конференции. – 2010. №4 (56), – с. 226-227.
7. Khasmammadova, A.M. The Historical and Cultural Monuments as recreational reserves in Guba-Khachmaz economic region of Azerbaijan // – USA: American International of Contemporary Research (AIJCR), Center for Promoting Ideas. – 2013. Vol. 3, №6, – p. 30-33.
8. Xasməmmədova, A.M. Quba-Xaçmaz iqtisadi rayonunda nəqliyyat amilinin turizm təsərrüfatının inkişafında rolu // “Müasr coğrafiya elminin tətbiqi istiqamətləri” mövzusunda elmi-praktiki

konfransın materialları. – Bakı: – 2014. – s. 395–402.
9. Khasmammadova, A.M. İmrani, Sh.V. Opportunities to use historical and cultural monuments for tourism in Guba-Khachmaz economic region of the republic of Azerbaijan // – Москва: Российский Научный Журнал, Вестник Национальной Академии Туризма, Экономика и туризм в условиях пандемии: реалии и лерспективы. – 2020. №4(56), – с. 52-55.
10. Хасмамедова, А.М. Центры религиозного туризма Губа-Хачмазского экономического района Азербайджанской республики и возможности их использования // – Симферополь: Учёные записки Крымского федерального университета имени В.И. Вернадского География, Геология, – 2023. Том 9 (75). № 3, – с. 53-63.

Dissertasiyanın müdafiəsi **"07" mart 2025-ci il tarixində, saat 11:00-da** AR Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, akademik Zahid Xəlilov 33. BDU, əsas korpus.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında (bsu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat "04" fevral 2025-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.01.2025
Kağızın formatı: A5
Həcm: 48785
Tiraj: 100